# «BAX VƏ M&M’S® TUT» AKSİYASININ KEÇİRİLMƏ QAYDALARI VƏ İŞTİRAK ŞƏRTLƏRİ

1. **Ümumi müddəalar**

1.1. Aksiyanın təşkilatçısı «C141» (Si 141) şirkətidir (Yerləşdiyi ünvan: AZ1025 Bakı, Azərbaycan, Babək pr-ti, Ələddin Quliyev küç., 1131-ci məhəllə, Babək Plaza, ofis B6-06).

1.2. Aksiyanın adı: «BAX VƏ M&M’S® TUT» (bundan sonra – «Aksiya»)

1.3. Aksiyanın keçirildiyi ərazi - Azərbaycan Respublikası;

1.4. Aksiyanın keçirildiyi ümumi müddət - 17 iyul 2020-ci il tarixindən 09 sentyabr 2020-ci il tarixinədək (bundan sonra - "Aksiyanın keçirilmə müddəti").

1.4.1. DİQQƏT: "M&M’s®" ticarət nişanının aksiya ilə əhatə olunan drajelərinin qablaşdırmalarında göstərilmiş müddətlərdən asılı olmayaraq 17 iyul 2020-ci il Bakı vaxtı ilə saat 00.00-dan etibarən 09 sentyabr 2020-ci il Bakı vaxtı ilə saat 23.59-dək (hər iki tarix daxildir) (bundan sonra - "Aksiyada iştirak üçün ərizələrin qəbulu dövrü") aksiyanın iştirakçısı olmaq olar.

1.5. Aksiyanın rəsmi qaydaları (bundan sonra – Qaydalar) www.mmspromo.az veb-saytında (bundan sonra – Sayt) yerləşdirilir.

1.6. Aksiyanın keçirilməsi Qaydaları və şərtləri ilə www.mmspromo.az saytında və ya +994 12 565 31 xətti ilə (Azərbaycan üzrə zənglər ödənişsizdir) tanış olmaq olar. Aksiya iştirakçılarının qeydiyyatı məlumat vermək məqsədi daşıyan qaynar xəttdə həyata keçirilmir. İnformasiya qaynar xəttinin iş rejimi Aksiya Təşkilatçısının mülahizəsinə görə istənilən vaxt operatorların iş rejimindən avtoinformatorun iş rejiminə dəyişdirilə bilər.

1.7. Aksiya istənilən çəkidə M&M’s® yer fındığı, şokolad, krispi drajelərinin (bundan sonra – Aksiya məhsulu) satışını stimullaşdırmaq üçün keçirilir.

2. **Fiziki şəxsin Aksiyanın iştirakçısı olmaq üçün riayət etməli olduğu şərtlər**

2.1. **Aksiyada iştiraka Azərbaycan Respublikasının hüquq səlahiyyətli vətəndaşları və Azərbaycan Respublikasında yaşamaq icazəsi olan , Aksiyanın keçirildiyi müddətdə Azərbaycan Respublikasının ərazisində daimi yaşayan, Aksiyanın keçirilmə anına 14 (on dörd) yaşı tamam olmuş şəxslər (bundan sonra Aksiya İştirakçısı) buraxılır.** Azərbaycan Respublikasının ərzisində doğulmuş, valideynləri/qanuni nümayəndələri Azərbaycan vətəndaşı olan və ya Azərbaycan Respublikasında yaşamaq icazəsi olan şəxslər olan həddi buluğa çatmamış şəxslər (14-18 yaş arası) aksiyada yalnız valideynlərdən birinin/qanuni nümayəndənin icazəsi ilə iştirak edə bilərlər.

2.2. Aşağıdakı şəxslər Aksiyada iştiraka buraxılmır: Aksiya Təşkilatçısının işçiləri, Aksiya Təşkilatçısının maraqlarını təmsil edən şəxslər, müəyyən edilmiş qaydada Aksiya Təşkilatçısı ilə bağlı olduğu qəbul edilmiş şəxslər, üçüncü şəxslərin Aksiya Təşkilatçısı ilə mülki-hüquqi və digər münasibətləri olan və təşkilat və/və ya Aksiyanın keçirilməsi ilə bağlı olan işçiləri və nümayəndələri, vətəndaşlığı olmayan şəxslər və Azərbaycan Respublikasında yaşamaq icazəsi olmayan digər ölkə vətəndaşları.

2.3. İştirakçı - Qaydaların tələblərinə cavab verən və Aksiyada iştirak üçün Ərizələrin qəbulu müddətində Aksiyada iştirak üçün zəruri olan tələbləri yerinə yetirmiş şəxsdir.

2.4. Aksiyanın iştirakçısı olmaq və hədiyyə almaq imkanını əldə etmək üçün 17 iyul 2020-ci il Bakı vaxtı ilə saat 00.00-dan etibarən 09 sentyabr 2020-ci il Bakı vaxtı ilə saat 23.59-dək:

2.4.1. Sayta daxil olub;

2.4.2. Saytda aşağıdakılardan ibarət qısa qeydiyyatdan keçmək:

- soyad və ad (sənədlərlə eyni olmalıdır)
- İştirakçının adına rəsmiləşdirilmiş mobil telefon nömrəsi

2.4.3. qeydiyyat məlumatlarında qeyd edilmiş mobil telefon nömrəsinə Sayta daxil olmaq üçün SMS vasitəsilə alınmış qısa kodun (bundan sonra - SMS-də qeyd edilmiş kod) daxil edilməsi yolu ilə mobil telefon nömrəsini təsdiq etmək;

2.4.3.1. Qeydiyyatın uğurlu keçdiyi təsdiq olaraq Saytda elektron məlumat ismarıcı çıxır və Aksiyanın İştirakçısına Aksiya İştirakçısının mobil telefon nömrəsinə uyğun unikal nömrə verilir və ona İştirakçının virtual akkauntunu təşkil edən "Şəxsi kabinetə" giriş açılır.
"Şəxsi kabinetdə" keçilmiş oyun sessiyaları, qazanılmış hədiyyələrin adları və miqdarı haqqında məlumat əks olunur və saxlanılır.

2.4.3.2. Qeydiyyatdan keçdikdən sonra iştirakçıya 1-ci səviyyəyə aid oyunu oynamaq imkanı açılır.

2.4.4. Saytdan ən azı bir oyun oynamaq.

2.5. İştirakçının SMS kodunu bərpa etmək imkanı açıqdır. SMS kodunu bərpa etmək üçün sorğu Aksiyanın keçirildiyi müddət ərzində göndərilə bilər. SMS kodunu bərpa etmək üçün Saytdakı qeydiyyat/avtorizasiya formasında SMS kodunu əldə etmək üçün təkrar sorğu göndərmək lazımdır. Bundan sonra qeydiyyat zamanı qeyd edilmiş mobil telefon nömrəsinə yeni SMS kodu göndəriləcək.

2.6. Bir Aksiya iştirakçısı bir unikal mobil telefon nömrəsindən ən çoxu bir qeydiyyat formasını qeydiyyatdan keçirə bilər.

2.7. Eyni mobil telefon nömrəsindən yalnız bir Aksiya İştirakçısı tərəfindən istifadə edilə blər.

2.8. Qeydiyyat zamanı qeyd edilən bütün məlumatlar doğru olmalıdır. Saytda qeydiyyat zamanı qeyd edilən Ad və Soyad şəxsiyyəti təsdiq edən sənədlərin üzərindəki ilə eyni olmadıqda Aksiya İştirakçısı həmin şəxs tərəfindən qazanılmış Hədiyyələri ona verməkdən imtina etmək hüququna malikdir.

## 3. Əsas anlayışlar və Aksiya İştirakçısının hədiyyələrin uduşunda iştirak zamanı əməl etməli olduğu şərtlər

3.1. Əsas anlayışlar:

- **Konfetlər –** oyunçunun fincanla tutduğu M&M’s® konfetləri şəklində oyun elementləri. Oyunun hesabı konfetlə aparılır.
- **Hesab –** 1 dəqiqə ərzində oyunçunun tutduğu konfetların miqdarı. Oyunun vaxtı bitdikdən sonra ekranda əks olunur.
- **Oyunun vaxtı –** oyunçuya hər səviyyəni keçmək üçün ayrılan 1 dəqiqə.
- **Səviyyə –** oyunun mürəkkəbliyinin artması. Oyun üç səviyyədən ibarətdir: birinci - start səviyyəsi, hədiyyəsiz. İkinci - daha mürəkkəb, Sarı hədiyyələrlə. Üçüncü - ən mürəkkəb, Sarı və Qırmızı hədiyyələrlə.
- **Əlavə oyun elementi Bomba –** tüstülənən bomba şəklində olan oyun elementi. Bomba fincana düşdükdə fincanı partladır.
- **Əlavə oyun elementi İkiqat M&M’s® –** 2 rəqəmli M&M’s® konfeti şəklində olan oyun elementi. Fincana düşdükdə 10 saniyə ərzində yeni tutulmuş konfetların sayını ikiqat artırır.
- **Əlavə oyun elementi hədiyyəli Sarı M&M’s® –** oyunun 2-ci səviyyəsində çıxan hədiyyəli konfet. Hədiyyəli sarı M&M’s®-i tutduqda oyunçu ikincidərəcəli hədiyyələri qazanır - promokodlar və M&M’s®.
- **Əlavə oyun elementi hədiyyəli Qırmızı M&M’s®** – oyunun 3-cü səviyyəsində çıxan hədiyyəli konfet. Hədyyəli qırmızı M&M’s®-i tutduqdan sonra oyunçu əsas hədiyyəni təşkil edən smartfon qazanır.
- **Sarı hədiyyələr -** oyunun ikinci və ya üçüncü səviyyəsində hədiyyəli sarı M&M’s®-i tutmaqla qazanılan hədiyyələr.
- **Qırmızı hədiyyələr -** oyunun üçüncü səviyyəsində hədiyyəli qırmızı M&M’s®-i tutmaqla qazanılan hədiyyələr.
- **Reytinq –** oyunçunun üçüncü səviyyədə konfetlərlə ölçülən fərdi nailiyyət göstəricisi.

3.2. Saytda uğurlu qeydiyyatdan sonra oyunun birinci səviyyəsinə giriş açılır:

- Məqsəd: 60 saniyə ərzində 50 konfet yığ
- Hədiyyələr: nəzərdə tutulmayıb
- Əlavə oyun elementləri: nəzərdə tutulmayıb

3.3. Birinci səviyyədə Məqsədə çatdıqdan sonra ikinci səviyyə açılır və İştirakçı hədiyyələrin uduşunda iştirak etmək imkanını əldə edir:
- Məqsəd: 60 saniyə ərzində 50 konfet yığ
- Hədiyyələr: Sarı hədiyyələr
- Uduş şərtləri: Sarı hədiyyələrdən birini qazanmaq üçün hədiyyəli Sarı M&M’s®-i tut
- Əlavə oyun elementləri: Hədiyyəli sarı M&M’s, İkiqat M&M’s, Bomba

3.4. İkinci səviyyədə Məqsədə çatdıqdan sonra üçüncü səviyyə açılır:
- Oyunun davamının şərti:
  - brauzerin kameraya girişini aç
  - M&M’s konfetini açıq saya fonda skan et. Skanı elə etmək lazımdır ki, "M" hərfi düz kadrda olsun
  - iki dəfədən çox cəhddən sonra skan etmək alınmadıqda İştirakçıya M&M’s konfetlərinin şəkillərini əl ilə yükləmək imkanı açılır.  Bünün üçün M&M’s konfetini açıq saya fonda skan etmək lazımdır, bu zaman "M" hərfi düz kadrda olmalıdır. Bundan sonra fotonu müvafiq yükləmə xanasına yükləmək lazımdır.
- Məqsəd: 60 saniyə ərzində maksimal sayda konfet yığ, reytinqdə birinci ol və Aksiyanın sonunadək reytinqdə pozisiyanı qoru.
- Hədiyyələr: Sarı hədiyyələr və Qırmızı hədiyyələr
- Uduş şərtləri: Sarı hədiyyələrdən birini qazanmaq üçün hədiyyəli Sarı M&M’s-i tut, Qırmızı hədiyyəni qazanmaq üçün hədiyyəli Qırmızı M&M’s-i tut.
- Əlavə oyun elementləri: Hədiyyəli Sarı M&M’s, Hədiyyəli QırmızıM&M’s, İkiqat M&M’s, Bomba

3.5. Üçüncü səviyyədə Məqsədə çatmış, yəni maksimal sayda konfet yığmış və Aksiyanın sonunda reytinqdə birinci olan  İştirakçıya Aksiyanın sonunda Əlavə hədiyyə verilir. Reytinqdə yanız bir ən yaxşı nəticə nəzərə alınır, bu da maksimal yeni/son (tarix və vaxta görə) nəticədir.

## 4. Hədiyyə fondunun tərkibi və miqdarı

4.1. Aksiyanın hədiyyə fondu Aksiya İştirakçısının pul vəsaitinin və əmlakının hesabına formalaşdırılır, aşağıdakı hədiyyələrdən ibarətdir:

4.2. Sarı hədiyyələr - 10 641 (on min altı yüz qırx bir) ədəd:

4.2.1. İvi (www.ivi.ru) onlayn kinoteatrına  6 (altı) aylıq abunəlik üçün elektron sertifikat  – 561 (beş yüz altmış bir)  ədəd, aktivləşdirmə müddəti 31 dekabr 2021-c il tarixinədək;

4.2.2. İvi (www.ivi.ru) onlayn kinoteatrına  1 (bir) aylıq abunəlik üçün elektron sertifikat  – 8 400 (səkkiz min dörd yüz)  ədəd, aktivləşdirmə müddəti 30 sentyabr 2020-c il tarixinədək;

4.2.3. yandex music (https://music.yandex.ru/) servisində 3 (üç) aylıq abunəlik üçün elektron sertifikat – 1008 (min səkkiz) ədəd, aktivləşdirmə müddəti 31 dekabr 2021-c il tarixinədək;

4.2.4. Cinema Plus kinoteatrına elektron sertifikat – 280 (iki yüz səksən) ədəd, aktivləşdirmə müddəti 31 dekabr 2020-c il tarixinədək;

4.2.5. M&M's yer fındığı drajeləri 240 qr – 392 (üç yüz doxsan iki) ədəd.

4.3. Qırmızı hədiyyələr – 8 ədəd:

4.3.1. iPad 10,2, 32 GB, Space Gray– 8 (səkkiz) ədəd.

4.4. Reytinqə görə əlavə hədiyyə - 1 ədəd:

4.4.1. iPhone 11 Pro 64Gb, Midnight Gray– 1 (bir) ədəd.

4.5. Hədiyyələrin xarici görünüşü, rəngləri və modelləri Saytda və reklam materialarında əks olunanlardan fərqli ola bilər. Təşkilatçı öz mülahizəsinə görə hədiyyələrin rəng və modellərini dəyişdirmək hüququna malikdir.

## 5. Hədiyyələri qazanma qaydası

5.1. İkinci və üçüncü səviyyədə hədiyyəli Sarı M&M's®-i tutmuş Aksiya İştirakçısı **Sarı hədiyyənin** sahibi hesab edilir.

5.2. Üçüncü səviyyədə hədiyyəli Qırmızı M&M's®-i tutmuş Aksiya İştirakçısı **Qırmızı hədiyyənin** sahibi hesab edilir;

5.3. Reytinqdə birinci yeri tutmuş Aksiya İştirakçısı **Əlavə hədiyyənin** sahibi hesab edilir. Aksiya bitdiyi anda bir və ya daha çox iştirakçının eyni sayda konfeti olarsa, nəticəsi ən yeni/son (tarix və vaxta görə) olan İştirakçı Əlavə hədiyyənin sahibi hesab ediləcək.

5.3.1 Qırmızı hədiyyənin sahibi olmuş İştirakçı Əlavə hədiyyənin sahibi ola bilməz.

5.4. Bir Aksiya iştirakçısı Aksiyanın bütün müddəti ərzində ən çox 2 (iki) Sarı hədiyyə və 1 (bir) Qırmızı hədiyyə və ya 1 (bir) Əlavə hədiyyə qazana bilər.

5.5. Aksiya qaliblərinin tam siyahısı 31 oktyabr 2020-ci il tarixindən gec olmayaraq (bundan sonra - Aksiyanın keçirilmə nəticələrinin nəşri tarixi) Saytda "Qaliblər" bölməsində yerləşdiriləcək.

## 6. Aksiya qaliblərinə hədiyyələrin verilmə qaydası və müddəti

6.1. **Sarı hədiyyələr**, məhz:

- Cinema Plus kinoteatrına elektron sertifikat
- İvi (www.ivi.ru) onlayn kinoteatrında 6 (altı) aylıq abunəlik üçün el. sertifikat
- İvi (www.ivi.ru) onlayn kinoteatrında 1 (bir) aylıq abunəlik üçün el. sertifikat
- yandex music (https://music.yandex.ru/) servisində 3 (üç) aylıq abunəlik üçün el. sertifikat.

Sarı hədiyyənin sahibinə elektron (virtual) sertifikatlar - promokodlar qismində verilir. Elektron sertifikatın alınması haqqında məlumat Aksiya İştirakçısının şəxsi kabinetində promokod şəklində əks olunur. Promokodlardan istifadə qaydası:

| | |
|---|---|
| Cinema plüş promokodu | Pulsuz bileti almaq üçün Cinema Plus kassasında alınmış promokodu təqdim etmək lazımdır (qalibin şəxsi kabinetini göstərmək lazımdır). İstənilən Cinema Plus kinoteatrında kino seçmək olar (dolbi atmos və platinum zaldan başqa).<br><br>Ətraflı: https://www.cinemaplus.az |
| Ivi promokodu | Aşağıdakıları etmək lazımdır:<br>• ivi.ru-ya daxil olub;<br>• qeydiyyatdan keçmək;<br>• "Mənim ivi-m" bölməsinə daxil olub;<br>• "Sertifikatı aktivləşdir" bölməsinə keçdikdən sonra<br>• aktivləşdirmə kodunu (promokodu) daxil edib, rahatlıq və abunəliyin aktivləşdirilməsi üçün kartı bağlamaq lazımdır. Kartı istənilən anda ayırmaq olar.<br><br>Sertifikat, ivi-nin yeni istifadəçiləri üçün qüvvədədir. Abinəliyin aktiv olduğu ərazi: Qazaxstan, Azərbaycan, Gürcüstan<br>Əlavə məlumat: ask.ivi.ru<br>Ətraflı: https://www.ivi.ru/info/agreement |
| yandex music promokodu | Aşağıdakıları etmək lazımdır: promokodu burada https:/music.yandex.com/gift aktivləşdirmək |

6.2. Sarı hədiyyəni, məhz netto çəkisi 240 qram təşkil edən M&Ms®-i almaq üçün Sarı hədiyyənin sahibi saytda uduş haqqında bildirişi aldıqdan sonra 15 (on beş) təqvim günü ərzində hədiyyənin çatdırılması üçün qeydiyyat formasını (bundan sonra - Çatdırılma forması)doldurmalıdır . Doldurulma üçün ayrılmış müddət başa çatdıqdan sonra Çatdırılma forması doldurulma üçün artıq açılmır.

- "mobil telefon" və "hədiyyənin adı" xanaları qeydiyyat zamanı qeyd edilmiş məlumatlara uyğun olaraq doldurulur və redaktə edilmir;
- qalan məlumat Sarı hədiyyənin Sahibi tərəfindən doldurulur və Çatdırılma forması göndərilən anadək redaktə edilə bilər. Hədiyyənin çatdırılması haqqında məlumatlar düzgün doldurulmalıdır.

6.2.1. Çatdırılma forması "Şəxsi kabinetdə" saxlanılır.

6.2.2. Çatdırılma forması doldurulduqdan sonra 20 (iyirmi) iş günü ərzində əlaqə məlumatını, daha dəqiq isə qalibin şəxsi məlumatlarını, eləcə də şəxsiyyəti təsdiq edən sənədin nömrəsi, tam yaşayış ünvanı, yaşı, Aksiyaya aid digər məlumatı dəqiqləşdirmək üçün qaliblərə Aksiyanın qaynar xəttinin operatorları zəng edə bilərlər.

6.2.3. Aksiyanın Sifarişçisi Çatdırılma formasının doldurulmasından etibarən 20 (iyirmi) iş günü ərzində əlaqə məlumatlarının dəqiqləşdirilməsi üçün Sarı hədiyyələrin Sahibi ilə əlaqə saxlaya bilməzsə, həmin qalib həmin hədiyyəni almaq hüququndan məhrum olur və Aksiyanın Sifarişçisi həmin hədiyyədən öz mülahizəsinə görə istifadə edə bilər.

6.2.4. Bu Sarı hədiyyə kuryer xidməti vasitəsilə 31 oktyabr 2020-ci il tarixinədək Çatdırılma formasında qeyd edilən məlumatlara əsasən qapıyadək çatdırılacaq. Hədiyyəni aldıqda şəxsiyyəti təsdiq edən sənədin əsli göstərilməlidir, məlumatla Çatdırılma formasındakı məlumatlarla eyni olmalıdır. Əks təqdirdə mükafatın verilməsində imtina ediləcək.

6.2.5. Poçt göndərişlərinin ödənilməsi, eləcə də hədiyyənin çatdırılması üzrə bütün xərcləri Sarı hədiyyələrin Sahiblərinin yaşadığı şəhərlərə (yerlərə) Aksiyanın Təşkilatçısı öz üzərinə götürür.

6.3. **Qırmızı hədiyyə** və ya **Əlavə hədiyyəni** almaq üçün bu cür hədiyyənin Sahibi uduş haqqında bildiriş aldıqdan sonra ən geci 2 təqvim günü ərzində Aksiyanın Təşkilatçısına şəxsiyyət vəsiqəsinin / Azərbaycan Respublikasında yaşamaq icazəsinin surətini təqdim etməli və FİN-i, faktiki yaşayış ünvanını, indeksi və Aksiyaya aid digər məlumatı mütləq qeyd etməlidir.

6.3.1. Qırmızı hədiyyənin və ya Əlavə hədiyyənin Sahibindən məlumatları aldıqdan sonra Aksiyanın Təşkilatçısı Aksiyanın Şərtlərinə uyğunluğun yoxlamasını keçirir:

- qalibin adı qeydiyyat zamanı qeyd edilmiş məlumatlara uyğunluğu;
- qalibin Azərbaycan Respublikasının vətəndaşı və ya Azərbaycan Respublikasında yaşamaq icazəsi olan əcnəbi vətəndaş olduğu;
- Aksiyada iştirak anında qalibin 18 yaşı olduğu, və ya Aksiyada iştirak anında qalibin yaşı 18-dən kiçik lakin 14-dən böyük olduda valideynlərdən birinin/qanuni nümayəndəsinin icazəsinin olub-olmadığı;
- qalibin Aksiya Sifarişçisinin və ya Aksiya Təşkilatçısının əməkdaşı olub-olmadığı;
- qalibin Aksiya Təşkilatçısının və ya Aksiya Sifarişçisinin maraqlarını təmsil elən şəxs olub-olmadığı;
- oyunun üçüncü səviyyəsinə keçid zamanı M&M's ® konfetinin skan edilib-edilmədiyi.

6.3.2. Aksiyanın şərtlərinə uyğun olduqda Aksiyanın Təşkilatçısı hədiyyəni Qızmızı hədiyyənin və ya Əlavə hədiyyənin Sahibi tərəfindən təqdim edilən faktiki yaşayış ünvanına göndərəcək.Poçt göndərişlərinin ödənilməsi, eləcə də Qırmızı hədiyyələrin və Əlavə hədiyyələrin Sahiblərinin yaşadığı şəhərlərə (ərazilərə) hədiyyələrin çatdırılması ilə əlaqədar bütün xərcləri Aksiya Təşkilatçısı öz üzərinə götürür. .

6.3.3. Aksiya şərtlərinə əməl etmədikdə Aksiya Təşkilatçısı Saytda avtomatik olaraq dərc edilən nəticələrdən asılı olmayaraq hədiyyəni təqdim etməkdən imtina etmək hüququna malikdir.

## 7. Aksiyanın ümumi şərtləri

7.1. **Bir Aksiya İştirakçısı yalnız bir mobil telefon nömrəsindən istifadə etməklə Aksiyada iştirak etmək hüququna malikdir. Bir Aksiya** İştirakçısı tərəfindən Aksiyada iştirak üçün birdən çox mobil telefon nömrəsindən istifadə halı aşkar edilərsə həmin Aksiya iştirakçısı Aksiya çərçivəsində hər-hansı hədiyyəni almaq hüququndan məhrum olur. Qeydiyyat zamanı qeyd edilmiş bir neçə mobil telefon nömrəsi sahibi olan Aksiya İştirakçısının müəyyən edilməsinin identifikatoru - bir neçə mobil telefon nömrəsi ilə eyni yaşayış yeridir. Bu halda Aksiya Təşkilatçısı Aksiya İştirakçısını Aksiyada iştirak imkanından məhrum etmək və həmin Aksiya İştirakçısının qazandığı hədiyyələri qismən və ya tamamilə geri çağırmaq hüququna malikdir.

7.2. Aksiyada iştirak faktı təsdiq edir ki, Aksiyanın İştirakçıları razılaşırlar ki, onların adları, ata adları, soyadları, fotoşəkillər, video- audio- və onlar haqqında digər materiallardan Aksiyanın Təşkilatçısı tərəfindən Aksiyanın keçirilməsi ilə bağlı bütün reklam və (və ya) informasiya materiallarında Aksiya İştirakçılarına hər hansı ödənişin edilməməsi ilə istifadə edilə bilər. Aksiya iştirakçısı həddi buluğa çatmayıbsa (14-18 yaş arası) yuxarıda sadalanmış məlumatlardan istifadəyə razılıq valideynlərdən biri/qanuni nümayəndə tərəfindən verilir. Aksiyanın qalibi bu Aksiyanın keçirilməsi ilə bağlı kütləvi informasiya vasitələrində müsahibə verməyə və hazırlanmış reklam materialları üçün çəkilişlərdə iştirak etməyə razılıq verir. Bu cür reklam materialları üzərində bütün hüquqlar Aksiyanın Təşkilatçısına aiddir.

7.3. Saytda qeydiyyatdan keçməklə Aksiya İştirakçısı təsdiq edir ki, Azərbaycan Respublikasının hüquq səlahiyyətli vətəndaşıdır, özü haqqında düzgün məlumatları bildirib və Aksiya Təşkilatçısından reklam aksiyaları, hədiyyələr, məhsul nümunələri haqqında məlumatların və digər təkliflərin alınmasına razılığını bildirir. Aksiya İştirakçısının razılığı Aksiya Təşkilatçısına və onun bu cür məlumatların icazəsiz istifadədən qorunması üçün zəruri tədbirlərə riayət edəcək səlahiyyətli şəxslərinə Aksiya Təşkilatçısı və/və ya onun səlahiyyətli nümayəndələri tərəfindən Aksiya Təşkilatçısının reklam aksiyaları ilə əlaqədar Aksiya İştirakçıları ilə SMS ismarışlarının və elektron poçt məktublarının göndərilməsi, eləcə də elektrik rabitə şəbəkələri də daxil olmaqla əlaqənin saxlanılması üçün Aksiya İştirakçısının anketdə göstərdiyi şəxsi və digər məlumatlarının toplanılması, saxlanılması, emalı və istifadəsini həyata keçirmək imkanını verir. Razılıq Aksiya İştirakçısı tərəfindən qeydiyyat məlumatlarının bildirilməsi anından geri çağırılması anınadək etibarlı hesab edilir.

7.4. Aksiya İştirakçısı geri çağırma haqqında imzalanmış yazılı bildirişi aşağıdakı ünvana göndərməklə və bildirişdə öz soyadı, adı, atasının adı, doğum tarixi və İştirakçının qeydiyyat məlumatları ilə birlikdə Aksiyada iştirak üçün bildirdiyi ünvanı qeyd etməklə öz razılığını geri çağıra bilər: AZ1025 Bakı, Azərbaycan, Babək pr-ti, Ələddin Quliyev küç., 1131-ci məhəllə, Babək plaza, ofis B6-06).

7.5. Razılığın geri çağırılması haqqında bildirişi aldıqda Aksiyanın Təşkilatçısı və onun səlahiyyətli şəxsləri həmin Aksiya İştirakçısının şəxsi məlumatlarının emalını dayandırır və şəxsi məlumatları geri çağırmanın daxil olduğu tarixdən etibarən beş iş günündən çox olmayan müddətdə məhv edir.

7.6. Aksiya İştirakçısı tərəfindən geri çağırmadan sonra Aksiya İştirakçısının şəxsi məlumatlarının məhv edilməsi nəticəsində Aksiyanın keçirilməsi ilə bağlı hərəkətlər icra edilmədikdə Aksiya təşkilatçısı Aksiyanın keçirilməsi ilə bağlı hərəkətlərin icra edilməməsinə görə məsuliyyət daşımır.

7.7. Aksiya təşkilatçısı aşağıdakılara görə məsuliyyət daşımır:

- qeydiyyat/avtorizasiya üçün cavab SMS-ismarışı şəklində Təsdiqləyici kod göndərən provayderlə birləşmə;
- mobil rabitə operatorlarının şəbəkələrində profilktika işlərinin keçirilməsi zamanı və ya Aksiya təşkilatçısının günahı olmadan yaranmış digər nasazlıqlar səbəbindən cavab SMS-ismarışının gecikdirilməsi və/və ya çatdırılmaması, eləcə də Aksiya İştirakçısına Aksiyanın hədiyyə sahibi olaraq qəbul edilməsi haqqında bildirişin mobil telefonunun aramsız olaraq 24 saat ərzində söndürülmüş və ya mobil rabitə operatorunun şəbəkəsinin əhatə dairəsindən kənarda olması səbəbindən çatdırılmaması;
- SMS-ismarışlarının gecikdirilməsi və/və ya çatdırılmaması, eləcə də Aksiya Təşkilatçısının günahı olmadan mobil rabitə operatorlarının istənilən digər texniki nasazlıqları.

7.8. Aksiya İştirakçısı təsdiq edir ki, qeydiyyat zamanı qeyd edilmiş mobil telefon nömrəsi onun adına rəsmiləşdirilib. Aksiya Təşkilatçısı bu faktı təsdiq edən sənədi tələb etmək hüququnu özündə saxlayır. Bu təsdiqin olmadığı halda Təşkilatçı bu cür Aksiya İştirakçısına hədiyyəni verməkdən imtina edə bilər.

7.9. Aksiya İştirakçısı razılaşır ki, qeydiyyat zamanı Kodun qeyd edildiyi SMS-ismarışının göndərildiyi mobil telefon nömrəsi hüquqi şəxsin adına qeydiyyatdan keçirilibsə Aksiya Təşkilatçısı Aksiya iştirakçısına hədiyyəni(hədiyyələri) təqdim etməkdən imtina etmək və ya təxirə salmaq (təqdim edilməmənin müvafiq səbəblərinin aradan qaldırılmasınadək) hüququnu özündə saxlayır.

7.10. Aksiya Təşkilatçısı istənilən zaman Aksiyanın keçirilmə şərtlərini və qaydalarını birtərəfli qaydada dəyişmək hüququna malikdir, bu haqda məlumat Aksiya Təşkilatçısı tərəfindən Saytda qeyd edilir.

7.11. Aksiya İştirakçılarının Aksiyanın gedişatı ərzində aldıqları hədiyyələrə görə vergilərin ödənilməsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir;

7.12. Aksiyanın Təşkilatçısı nəticələri saxtalaşdıran və ya bu Qaydaları pozmaqla hərəkət edən, həmçinin destruktiv şəkildə hərəkət edən və ya bu Aksiya ilə bağlı ola bilən istənilən şəxsi bezdirmək, təhqir etmək, təhdid etmək və ya narahat etmək niyyəti ilə hərəkət edən və aşağıdakı hallarda istənilən şəxsin akkauntunu ləğv etməklə onun reytinq nəticələrini öz mülahizəsinə görə etibarsız hesab edə, eləcə də bu Aksiyada sonrakı iştirakını qadağan edə bilər:

- Aksiyanın Təşkilatçısı İştirakçı tərəfindən qeydiyyat zamanı təqdim edilmiş məlumatın yanlış, natamam, səhv və ya qeyri-dəqiq olduğunu hesab edərsə;
- Aksiyanın İştirakçısı brauzerin "tərtibatçı alətlərindən" və ya digər icazəsiz utilitarlardan və ya softdan (məs. Google Dev Tools) istifadə etməklə saytın işi və ya koduna icazəsiz müdaxilə edərsə və ya üstünlük əldə etmək məqsədilə məlumatları hər-hansı şəkildə dəyişdirər və saxtalaşdırarsa.
- Aksiyanın Təşkilatçısının/Operatorunun İştirakçı tərəfindən həm Saytın özü, həm də İştirakçılar üçün müxtəlif növ və dərəcəli xoşa gəlməz nəticələri olan və ya ola biləcək fırıldaqçılığa, yalana, rüşvətə və ya maliyyə hiylələrinə yol verildiyinə, Aksiyanın Təşkilatçısı və ya Aksiyanın həyata keçirilməsi ilə əlaqəli olan şəxslərə maddi faydanın təklifin edildiyinə, və Saytda nəticələrlə bağlı digər manipulyasiyalara yol verildiyinə dair şübhələri/əsasları olarsa,
- İştirakçı bu Qaydaları pozan şəkildə hərəkət edərsə.

7.13. Hər hansı səbəbdən, eləcə də kompüter viruslarına yoluxma, İnternet şəbəkəsində nasazlıqlar, qüsurlar, manipulyasiyalar, icazəsiz müdaxilə, saxtalaşdırma, texniki nasazlıqlar və ya Təşkilatçı tərəfindən idarə edilməyən və Aksiyanın icrası, təhlükəsizliyi, doğruluğu, bütövlüyü və lazımi şəkildə həyata keçirilməsinə təsir edən digər səbəbdən Aksiya planlaşdırıldığı kimi keçirilə bilməzsə, Təşkilatçı öz təkbaşına mülahizəsinə görə Aksiyanın keçirilməsini ləğv edə, dayandıra, dəyişdirə və ya müvəqqəti olaraq dayandıra, yaxud da istənilən müvafiq iştirak ərizələrini etibarsız hesab edə bilər.

7.14. Təşkilatçı, Aksiya Qaydalarını pozmuş və ya 7.12 bənddə təsvir edilmiş fırıldaqçılıq və ya hiylələrdə ifşa edilmiş İştirakçılarla yazılı danışıqlarda və ya digər təmaslarda iştirak etməmək hüququna malikdir.